# TELEPATİYA, ÖNCƏGÖRMƏ VARMI? PARAPSİXOLOJİ HADİSƏLƏRİN MAHİYYƏTİ HAQQINDA

(Parapsixoloji hadisələrin izahına aid şərhlər – ziddiyyətlər, sübutsuzluq, sırf elmi yanaşmalar mövcuddur. Parapsixoloji "müalicənin" yayılması səbəblərindən ən mühümü insanların qeyri-adi hadisələrə yüksək marağı və onlardan tibdə istifadə olunmasıdır. Bir neçə arqumentləri, dəlilləri nəzərdən keçirək. Parapsixoloji fenomenlər mövcuddur. Bunlar doğru deyil: bənzətmə və uydurmadır. Həyat başdan-başa möcüzə deyilmi? Elmdən kənar heç nə yoxdur. Elm hər şeyi sübut edə bilirmi? Elm sübut etmir, demək, yoxdur.).

Cəmiyyətdə parapsixologiyanın yayılması səbəbləri: təbabətin qüsurlarıdır. İntellektual və iqdisadi durumun yüksəlişi olmadan onların qarşısı alına bilməz. Elm ən nəhəng ekstrasenslərin: Nastrodamus, Volf Messinq, Vanqa kimilərinin eksperementlərini sübuta yetirə bilməyib. Digər tərəfdən, elmin qəbul etdiyi hipnoz, fizioqnomika, intuitiv hissiyat, məntiqi nəticələr çıxartmaq qabiliyyəti, illuziyanistlər, vunderkindlər də mövcuddur. Bunların sintezindən istifadə etmək qabiliyyəti də mümkündür. Geniş miqyasda olmasa da, tək-tək hallarda fenomen nümayiş etdirən insanlar olub və indi də var. Göstərilən faktlar insanları aldatmağa avanturizmə və cəhalətə yol açır.

Parapsixoloji adı altında təsvir edilən fenomenlərə əzələ gücündən istifadə etmədən (əşyaya toxunmadan), yəni ekstrasensor üsullarla fiziki hadisələrə canlı aləmin təsir edə bilməsi qabiliyyəti aid edilir.

50-60 il əvvəl olduğu kimi, bu gün də parapsixoloji hadisələrin heç birinə tam əminliklə elmi izzahat vermək mümkün deyil və çoxları bu istiqamətdə aparılan işləri əbəs sayırlar. Bununla yanaşı bir çox inkişaf etmiş ölkələrdə, o cümlədən ABŞ və Qərbi Avropada bu sahədə fundamental elmi istiqamətlər (ekstrasensorika, biofiziki informasiya) müəyyənləşdirilmişdir və ciddi tədqiqatlar aparılır. Göstərilən ziddiyyətli mülahizələrə əsas verən faktlar isə kifayət qədər yoxdur.

Bunlardan bəzilərini nəzərdən keçirək:

1. Müasir elmi üsulların köməkliyilə parapsixoloji fenomenlərə izahat vermək mümkün deyil.

2. Parapsixoloji hadisələrin baş verməsi və onu nümayiş etdirən adamlar olduqca azdır. Ən başlıcası isə belə fenomenləri nümayiş etdirən şəxslər yalnız

xüsusi şəraitdə, xüsusi şərtlərlə çıxış edə bilirlər. Bu isə olduqca müəmmalı və anlaşılmaz görünür.

3. Parapsixoloqların əksəriyyəti nümayiş etdirdikləri hadisələri ya izah edə bilmirlər və ya bunları qeyri-təbii (qeyri-materialist) qüvvələrlə əlaqələndirirlər. Bu isə elmi baxışların tam əksinə olmaqla, bizi daha çox mistikaya sürükləyir.

Parapsixoloji hadisələrə elmi don geyindirməyə çalışan şəxslər belə bir mülahizə irəli sürürlər ki, göya psixi hasilatlı fikir özünəməxsus enerji daşıyıcısıdır və maddidir. Əgər bu həqiqətdirsə deməli psixi qüvvə istənilәri qüvvə ilə əlaqəyə girmək, ona təsir etmək qabiliyyətinə malikdir.

Son illər Öz arqumentlərini doğrultmağa çalışan parapsixoloqlar "introspeksiya" (digər şəxsin daxili orqanlarını və oradakı prossesi görə bilmək), "proskopiya" (gələcək hadisələrdən xəbər vermək) və digər bu kimi terminlərdən istifadə etməklə məşğul olduqları sahəni elmi əsaslar üzərində qurmağa çalışırlar.

Parapsixoloji fenomenlərin elmi istiqamətdə öyrənilməsi tarixi XIX əsrin axırlarına təsadüf edir. Ilk dəfə 1882-ci ildə Frans Mesmer və Henri Sidviqin təşəbbüsü ilə Londonda qeyri-adi psixi hadisələri öyrənən cəmiyyət yaradıldı (həmin cəmiyyət indi də fəaliyyətini davam etdirir).

Belə bir cəmiyyət 1920-ci ildə görkəmli psixonevroloq V.M. Bexterevin himayəsi altıda, onun şagirdi L.L.Vasilyev tərəfindən də yaradılmışdır. Bu alimi daha çox maraqlandıran telepatiya və aydın görmə fenomenləri idi. Bu günədək belə cəmiyyət və elmi mərkəzlər dünyanın 30-dan çox ölkəsində təşkil edilmiş və hazırda onların sayı 200-dən çoxdur. Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən 100-dən artıq laboratoriya və cəmiyyəfləri birləşdirən "Amerika Parapsixologiya Assosiasiyası” 50 ildən çoxdur ki, fəaliyyət göstərir.

Parapsixoloji eksperimentləri obyektivləşdirməyə təşəbbüs göstərənlər son illər müxtəlif üsullarla bu sahədə yeniliklər yaratmağa cəhd göstərirlər. Onlardan bəziləri auroqrafiya və foto-kino çəkilişi üsullarından istifadə edərək, insanın biosahəsini, astral bədəni və hətta hallüsinasiyaların şəklini çəkməyə çalışmışlar.

**Parapsixoloji hadisələrə nələri aid etmək olar? Onların sayı çoxdur, ən əsasları isə bunlardır:**

**Telepatiya** - iki şəxs və ya digər canlılar arasında fikir mübadiləsi aparmaq. Başqa sözlə, insanların fikrini oxumaq.

**Aydıngörmə** - hiss orqanları, əsasən gözün iştirakı olmadan xarici aləmdə baş verən hadisələri görmək. Belə qabiliyyəti olanlar arasında xüsusi fərqlənən Bolqariyalı

qadın Vanqa olmuşdur. 14 yaşında görmə qabiliyyətini itirmiş bu qadin 16 yaşında bu qabibyyəti əldə etmişdir. Ondan soruşduqda ki, bunları necə görürsünüz, o deyirdi: "mən hər şeyi gözümlə yox öz fikirlərimlə görürəm". Aydıngörmə qabiliyyəti ilə dünyada tanınan digər şəxs Ukraynanın Donetsk şəhərində yaşamış Y. F. Vorobyova olmuşdur. Elektrik travması nəticəsində kliniki ölüm keçirmiş və görmə qabiliyyətini itirmiş bu qadında qeyri-adi xüsusiyyətlər meydana çıxmışdır. Deyilənlərə görə, o, insanların daxilini görüb (biointroskopiya), şəxsin keçmişindən xəbər verir (retrospeksiyi və gələcəklərini söyləyə bilirmiş (proskopiya).

**Biolokopiya effekti** - əlində Y-ə bənzər çubuq və ya məftil tutaraq hərəkət etməklə yerin altmda su mənbələrini, faydah qazıntılan və sairəni aşkar etməkdir. Tapıntıya rast gələrkən, əlində tutduğu əşyanın firlanmasını hiss edən şəxs aşkar etdiyi sahədə qazıntı apararaq, tapıntını üzə çıxara bilir. Bu üsuldan istifadə edərək, Amerika əsgərləri Vyetnamda maqnitsiz minaları, insan cəsədlərini aşkar edə bilirdilər. Mətbuatda Çelyabinsk vilayətində bu yolla 1220 su mənbəyi aşkar edilməsi haqqında məlumat dərc edilmişdir. Ədəbiyyatda buna bənzər faktlar çoxdur və onların müəllifləri öz eksperimentlərini inamla sübuta yetirməyə çalışırlar.

**Telekines (psixokines)** - ətrafda yerləşən canlı və ya cansız aləmə əzələ qüvvəsindən istifadə etmədən (toxunmadan) psixoloji yolla təsir etmək - onu hərəkətə gətirməkdir. Belə qabiliyyətə malik olan ekstrasens V. Abdeyev bu sahə ilə məşğul olan akademik Y.B.Kobzarevin müşahidəsi altında "psixi güc" tətbiq etməklə kompasın əqrəblərini dayandırmış, sonra da hərəkətə gətirmişdir. Eyni zamanda o, stolun üstünə qoyulmuş kibrit qutusunu, siqaret, kofe qabını da hərəkətə gətirmişdir. Digər ekstrasens N.Kulagina çəkisi 1 kq-a qədər əşyaları hərəkətə gətirmişdir. Bu və buna bənzər eksperimentləri sirkdə nümayiş etdirilən adi illyuziya oyunu kimi də qəbul etmək olar.

Yeri gəlmişkən, bu sətirlərin müəllifinin 1989-91-ci illərdə müşahidə etdiyi bəzi "fenomenlər" haqqmda məlumat verməsi yerinə düşərdi. Həmin illərin Azərbaycan üçün keçid dövrü, yəni hərc-mərcliklərin baş alıb getdiyi, iqtisadiyyatin günbəgün pisləşdiyi, demokratiya, sərbəstlik şüarları altında cərəyan edən hadisələrlə zəngin illər olduğunu qeyd etmək lazımdır. Məhz bu illər ölkəmizdə ekstrasenslərin, "vergi verilənlərin", qeyri-ənənəvi müalicə üsulları ilə sağalmaz xəstələri müalicə edənlərin sayı gündən-günə artmaqda idi. Gözü bağlı, əlləri vasitəsi ilə rəngləri, hərfləri görən 12 yaşlı Liza adlı şəxsı yenicə ifşa etmişdik ki, (bu haqda bir qədər sonra) bizə Azərbaycan Dövlət Televiziyasından zəng olundu. Bildirdilər ki, Bakıda əlində maqnit qüvvəsi olan qızlar tapılıb. Bu fenomeni araşdırmaq üçün xüsusi tapşırıqla televiziyaya getdim. Stolun üstünə müxtəlif əşyalar - kağız, dəmir pul,

eynək qoyulmuşdu. Qızlardan üçünü çağırıb dedim ki, bunları götürün. Əllərinin içini əşyaların üstünə basdılar və asanlıqla qaldırdılar. Əşyalar onlann əlinə yapışmışdı. Dedim ki, əlinizi çevirin və əlinizin arxası ilə əşyalan qaldırın. Bir qəpiklik dəmir pulu belə qaldıra bilmədilər. Başladılar ki, yox, maqnit əlimizin içi tərəfində, tük olmayan yerdə şüalanır. Qızlara əllərini yumağı təklif etdim. Əllərini yuyub, quruladıqdan sonra cəhd göstərsələr də bir şey ahnmadı, yəni onların əlinin içinə bir qəpik də yapışmadı.

İZAHAT: Telestudiyaya özümlə bir kitab da aparmışdım. 1908-ci ildə Almaniyada çap olunmuş və sonra rus dilinə tərcümə olunmuş həmin kitabda qeyd olunur ki, 14-18 yaşlarında qızların 4-5 faizində əlin içindəki tər vəziləri yapışqanvari maddə ifraz edir. Bu maddələrin köməyi ilə, hətta 100-150 qr. ağırhğmda olan əşyalan ələ yapışdırib, qaldırmaq mümkündür. Belə bir izahatdan sonra "maqnitli əl fenomeni" haqqında diskussiyalar elə oradaca qapandı. Başqa cür ola da bilməzdi, çünki təbiətdə, elmdə telekines, telepatiya və buna bənzər başqa fenomenlər elmi yolla sübuta yetirilməyib. Bunula yanaşı təlqin, hipnoz, fizioqnomika mövcuddur.

Indi isə yuxarıda adını çəkdiyim "Liza fenomeni" haqqında. 1988-ci ildə Tibb Universitetinin psixiatriya kafedrasına anası ilə 12 yaşında bir qız müraciət edir və bildirir ki, bu qız gözü bağlı, əlləri vasitəsi ilə 40-50 sm məsafədə yazını oxuyur, uzaqda yerləşən rəngləri və əşyalan görə bilir. Qızı yoxlayan kafedra işçiləri bu "eksperimentin" dərinliyinə varmadan təcrübəni müşahidə edib, qıza Moskvaya, bu işlərlə məşğul olan laboratoriyaya müraciət etməyi məsləhət görürlər. Ana qızını Moskvaya, akademik Spirinin laboratoriyasına aparır. Müvafiq yoxlamalardan sonra bildirilir ki, Lizanı elmi müşahidələr üçün eksperimentlərə cəlb etmək lazımdır. Bunun üçün isə yaşadığmız yerdən mütəxəssislərin göndərişi və orada, yəni Azərbaycanda aparılan müşahidənin protokolu lazımdır.Lizanın anası qızının "fenomen" olacağına, ailələrinə şöhrət gətirəcəyinə əmin olur və Bakıya qayıdır. Tələb olunan sənədləri almaq üçün kafedraya müraciət edir. Bu dəfə məsələnin ciddiliyini görən psixiatriya kafedrasının o vaxtkı müdiri professor Ə.Abbasquliyev Lizanı yoxlamaq üçün beş nəfərdən ibarət komissiya təşkil edir. Eksperimenti müşahidə edən komissiya üzvlərindən ikisi (biologiya kafedrasımn müdiri prof. Dəmir Hacıyev və professor Nadir İsmayılov) dərhal Lizanın hərəkətlərini şübhə altına alır. Lizanın anası ciddi sürətdə eksperimentə müdaxilə edir: "Mən milliyətcə erməni olduğum üçun ayrı-seçkilik salırsız" deyir və sikayət edəcəyini bildirir. Qızının qolundan tutaraq otağı tərk etmək istəyəndə mən eksperimental müşahidənin hələ qurtarmadığmı bildirdim. Qızın gözünü bir daha qara dəsmalla baglayıb, qarşısmda

bir qəzet tutaraq (ekran yaradaraq), təklif etdim ki, Liza əllərini qabağa uzadaraq, rəngləri seçsin. Liza dərhal əlləri ilə qəzeti döyəcləməyə başladı: "Mane olursunuz! Götürün bu qəzeti". Eksperimentin şərtiərinə əməl olunmayacağı tədqirdə heç bir rəy yazılmayacağını eşitdikdə qızın ağlaması, anasının isə şiddətli qəzəbi ilə qarsılaşdıq. Bu zaman mən təklif etdim ki, Lizanı gözü açıq vəziyyətdə müayinə etmək olar və hər şey tezliklə aydınlaşar. Lizaya başını sol çiyni üstündə döndərərək, divara baxmaq, sağ əlini isə əks istiqamətə uzadaraq, əşyaları ayırd etmək təklif olundu. Lizanın heç nə görə bilmədiyi hamı tərəfindən təstiq olundu. Sübut olundu ki, Liza gözünü nə qədər səliqəli bağlasa da, burunla göz arasındakı kiçik məsafə qapanmır (Bu, qızın sifətinin anatomik quruluşu ilə əlaqədar idi), həmin məsafədən o, asanlıqla göstərilən əşyaları görür və yazını oxuya bilir. Belə ifşa edilən eksperimentlərin sayı çoxdur. Respublika Səhiyyə Nazirliyi tərəfindən yaradılmış "Ekstrosenslik və digər qeyri-adi qabiliyyəti olanları aşkar edən" komissiyanın sədri olduğum illər ərzində (1989-cu ildən etibarən) dəfələrlə müraciət edənlər yoxlanılmış və heç birində qeyri-adi fenomen aşkar edilməmişdir.

Parapsixoloqların xeyli hissəsini (80-90%-i) təşkil edənlər (ekstrasenslər) daha çox müalicə - diaqnostika işi ila məşğul olanlardır. Onların "qeyri-adi istedadı" nədənsə təbabətə yönəlir. Səbəb isə aydındır. Bir çox xəstəliklərin, xüsusən, sinir sisteminin funksional pozuntuları ilə təzahür edən xəstəliklərin daha çox psixoloji təsir vasitələri ilə sağala bilmə imkanı, yəni inam - təlqin əsasında patoloji halların aradan qaldırılması imkanının böyük olması buna şərait yaradır.

1988-89-cu illər idi. Bakıda hər bir dərdin çarəsini tapan bir qadın peyda olmuşdu. Danışırdılar ki, əlindəki enerjilə xəstələri sağaldır. Hər gün yüzlərlə adam onun qapısına axışırdı. Səhiyyə Nazirliyi bu qadını yoxlamaq məqsədilə 15 mütəxəssisdən ibarət komissiya yaratdı. Mən də bu komissiyaya daxil idim. Qadının Bakı kəndlərinin birində yerləşən evinə yollandıq. Həyətə keçə bilmirdik. Evin qabağında beş-altı yüz adam yığılmışdı. Öyrəndik ki, bura nəinki Azərbaycanın ucqar rayonlanndan, hətta Türkmənistandan, Dağıstandan da gələnlər var. Birtahər içəri keçdik. Bizimlə görüşə asanlıqla razılaşmadı. Onu inandırdıq ki, komissiya üzvləri səninlə sadəcə söhbətləşməyə gəliblər. Qeyd edim ki, əvvəllər də mütəxəssislər onu yoxlamaq istəmişlər, lakin yaxın buraxmamışdı. Nəhayət, gəlib biz oturduğumuz otaga girdi. Ayağını içəri basan kimi özünü mənim üstümə atdı, adımı çəkdi. Təəccübləndim. Bu məni hardan tanıyır? Yavaşca qulağıma pıçıldadı ki, mən iki dəfə sizin klinikada – 2N-li Bakı Şəhər Kliniki Psixiatriya Xəstəxanasmda müalicə olunmuşam. Diqqətlə üzünə baxdım və tanıdım. Doğrudan da o, bizim pasiyentimiz olmuşdu. O, elə oradaca mənə bu sözləri dedi: "Insanlar nə qədər

yelbeyindirlər. Mən əlimi qaldırıram, gözlərini yumub yatırlar. Deyirəm sənin heç bir xəstəliyin yoxdur. Özlərini doğrudan da, sağlam adam kimi hiss edirlər". Qadın etiraf etdi ki, bundan başqa heç bir iş görmür. Çünki, sadəcə bacarmır. Həkim deyil, yalnız pedaqoji texnikom bitirib. Bildirdi ki, pedaqoq kimi işləyə bilmir, çünki müalicə olunmasına baxmayaraq, yenə də tam sağlam deyil. Biz məsələni izah etdik, etirazımızı bildirdik və az keçmədi ki, Azarbaycanda bu ekstrasens unuduldu.

Ümumiyyətlə, Azərbaycanda müalicə yönümlü "ekstrasenslər" tez-tez peyda olurlar və əsasən 6 ay - 1 ildən artıq fəaliyyət göstərə bilmirlər.

**Dəri vasitəsilə görmə.** Dərisi ilə (əlləri, ayaqları və s.) görmə funksiyasını icra edən ekstrasenslər arasında daha məhşur olanlardan biri Roza Kuleşova öz qabiliyyətini belə izah edirdi: "Əlimi hər hansı bir əşyaya yaxınlaşdıran kimi onun hərarətini (isti və ya soyuqluğunu) hiss edirəm, sonra isə rəngləri ayırd edirəm. Bir qədər sonra həmin əşya tam aydınlığı ilə beynimdə canlanır". Lakin faktlara da göz yummaq olmaz. 20 il əvvəl Spid-info qəzetində yerləşdirilmiş məqalədə Amerikada yaşayan bir nəfər şəxsin insanların daxilini görə bilməsi faktı haqqında yazılmışdı. “Mənim gözlərim rentgendir” - deyə özünü təqdim edən şəxsi müayinə edən mütəxəssislər belə qənaətə gəlmişdilər ki, bu fenomen elmi dəlillərlə izah edilə bilər. Bəzi adamların (əksərən kişilərin) göz ətrafında xüsusi hormonlar ifraz edən hüceyrələr mövcuddur. Müəyyən hava şəraitində həmin hormonların təsiri ilə göz adi halda görünməyən, insanın paltarla örtülmüş bədən hissələrini görür.

Qeyd edilən üsulla və ya dəri vasitəsilə görməni izah edən bir fərziyyəyə görə bu prosesi yaradan müvafiq dalğalardır. Belə qabiliyyəti olan adamlarm xəstəlikləri təyin edə bilməsi paradoksal görünmür. Lakin özünü "görücü" adlandıranlar bəzən daha dərinliyə gedir, gələcəyi görmə qabiliyyətləri olmasmı sübut etməyə çalışırlar. Belə "görücü"lərin və bilicilərin mətbuat səhifələrində dərc olunmuş sözlərini yoxladıqda, onların nə dərəcədə "bilici" olmaları aşkarlanır, yəni sübuta yetirilmir.

Moskvada çıxan qəzetlərin birində bilicinin 1988-ci ildəki məlumatma görə, 1996-cı ildə İtaliya zəlzələ nəticəsində iki yerə parçalanmalı idi. 2000-ci ilin sonunda Qarbaçov hökuməti devrilməli idi və s.

Bizim respublikamızda da görücülər vaxtaşırı peyda olur və müxtəlif proqnozlar veririlər. Belələrindən biri Məlahət xanım 16 yanvar 1999-cu il tarixdə "525-ci qəzet'ə verdiyi rnüsahibəsində demişdi ki, yaxın bir neçə ay ərzində Yeltsin hökuməti devriləcək və kommunistlərin lideri Gennadi Züqanov prezident seçiləcək. 1999-cu il ərzində Ermənistanda iki dəfə, Iranda isə 4-5 dəfə güclü zəlzələ olacaq. Astara və

Naxçıvana ziyan deyəcək. Ermənistanm prezidenti Koçaryan taxtdan salınacaq, yerinə kommunist Dəmirçiyan seçiləcək. Bundan sonra Azərbaycan - Gürcüstan, Ermənistan Sovet İttifaqının bərpa olunması üçün Rusiyaya müraciət edəcəklər. Bu yerdə, "şərhə ehdiyac yoxdur" kəlamı yada düşür. Deyilənlərin baş vermədiyinin şahidi olduq.

Beləliklə, parapsixologiyarun nümayəndələri, görücülər, bilicilər, ekstrasenslər və digərləri haqqında mövcud faktları yekunlaşdıraraq, olduqca ehtiyatla bəzi fenomenlərin mövcud olmasnı qəbul edə bilərik. Eyni zamanda, qeyd etməliyik ki, bu fenomenlərə nadir hallarda rast gəlinir. Belə fenomenal şəxslər isə qumluqda rast gəlinən qızıl dənəcikiərinə bənzəyir. Lakin əhalinin bəzi hissəsinin mədəni səviyyəsinin aşagı olmasından, iqtisad çətinliklərdən, sosial münaqişələrdən və ən başlıcası rəsmi təbabətin imkanlarının məhdudluğundan istifadə edən, mənəviyyatdan kasad bəzi avantüristlər özünü ekstrasens adlarıdıraraq, xalqı aldadır, qazanc mənbəyi əldə edir. Bəzi hallarda isə görücü və bilicilər adi ruhi xəstələr olurlar. Parapsixoloji fenomenlərin elmi izahına gəldikdə deməliyik ki, belə faktlar olsa da, onlar hələ ki, elm arenasına çıxa bilməyib. Elmin qanunları çox sərtdir, o, yalmz obyektiv olanı, təkzibedilməz faktları təsdiqləyir. Lakin bugünədək irəli sürülən mülahizələri, fərziyyələri də inkar edə bilmərik. Belə fərziyyələr içərisində maraqlı görünənlər haqqında məlumatlanmağa dəyər.

**Dünyanın dalğavari strukturu konsepsiyasına** görə, müxtəlif obyektlərin varlığı onların arasında mexaniki və qravitasiya əlaqəsi olmadan mümkün deyil. Elementar hissəciklər korpuskulyar olmaqla, həm də dalğavari xüsusiyyatə malikdir. Dalğa xüsusiyyətinə malik olan hissəciklər sonluqsuz, məhdudiyyətsiz qəbul edilir. Deməli o, Kainatın hər bir sahəsində mövcuddur. Holoqrafiya qanunları ilə sübut edilən bu fikir Kvant mexanikası vasitəsi ilə də təsdiqlənir. Belə bir mövqedən çıxış edən alimlər sübut etməyə çalışırlar ki, bizim genlərimizdə yazılan məlumatlar amin turşular deyil, holoqramlar yığımıdır. Sinxron tərcümə ilə məşğul olan adamların müayinəsi göstərir ki, onlar sözləri 0,43 saniyə müddətində tərcümə edə bilirlər, insan təzə soz deyəndə də bu qədər vaxt sərf edir. Deməli, tərcümə dərhal, əlavə vaxt sərf etmədən, başqa sözlə, rezonans kimi baş verir. Bu isə yalnız məlumatların dalğavari kodlaşması ilə mümkündür.

Hazırda insanın fikir və düşüncələrinin təbiəti haqqında mülahizələr meydana çrxmaqdadır. Psixi xəstəliklər zamanı müşahidə edilən görmə hallüsinasiyalarının foto və kino plyonkalara çəkilməsi fakti görmə analizatorundan mühitə şüalanmanı göstərir. Belə halda gözlər holoqram plastinkası rolunu oynayır.

Beyində yaranan obrazlar isə fizika qanunlarına görə dalğalardır, yəni holoqramdır.

Əgər doğrudan da belədirsə, Kvant mexanikası qanunları əsasında demək olar ki, fikir və obrazlar ətraf mühitin hər bir nöqtəsində görünə bilər.

**Bioloji sahə konsepsiyaları.** Biofizika sahəsində mühüm əhəmiyyət kəsb edən və bu istiqamətdə çalışan alimləri düşündürən problemlərdən biri vakuumla əlaqədardır. Bir çox alimlər sübut etmək istəyir ki, fiziki sahələrin daşıyıcısı obyektlər deyil, vakuumdur. Məlum olduğu kimi, maqnit sahəsi ancaq maqnitin özünə məxsus deyil. Maqnitin qanunları supersahəyə aid edilən vakuumla əlaqədardır. Supersahə anlayışını A.Eynşteyn vaxtilə belə izah etmişdir: mövcud olan üçölçülü aləmdə nə varsa, yəni fundamental fiziki sahələrin hamısı (elektromaqnit, qravitasiya, ultrasəs və s.) vahid bir sistemdə birləşir, bu da supersahədir. Vakuumu havasız, içərisində heç nə olmayan boşluq kimi qəbul edənlər yanılırlar. Artıq sübut olunmuşdur ki, vakuum spontan olaraq yaranan və yox olan hissəciklərdən ibarət xüsusi maddi mühitdir. Bu hissəciklər xüsusi qanunauyğunluq çərçivəsində bir-birilə əlaqəyə girərək, vakuumun fiziki xüsusiyyətlərini aşkar edir. Məlum olduğu kimi, elektrik sahəsinin təsiri altında vakuum yüksək keçiricilik xassəsi əldə edir və polyarizasiya qabiliyyətinə malik olur. Vakuum sıxılmış, bükülmüş vəziyyətdə ola bilər və yaxud əyilib boşala da bilər. Maddi aləmin bu hadisələrlə əlaqədar olması ideyası özünə daha çox tərəfdarlar tapmaqdadır.

Deyilənləri canlı materiyaya aid etsək, söyləyə bilərik ki, vakuum əsasında mövcud olan supersahə məhz biosahədir. Biosahənin termiki və ya elektrik təbiəti haqqmda fikirlər də özünü doğrultmur. Mürəkkəb spesifik xüsusiyyətlərə malik olan biosahə daha çox qravitasiya sahəsinə bənzəyir. Misal üçün, mitoz (hüceyrələrin bölünməsi) hadisəsini, yəni iki yerə bölünməni, hüceyrələrin müxtəlif qütblərə doğru hərəkət etməsini yalnız qravitasiya hadisəsi ilə əlaqələndirmək mümkündür. Nə elektrik, nə maqnit, nə reaktiv və s. qüvvə ilə iki yerə bölünmüş canh hüceyrəni müxtəlif qütblərə yönəltmək mümkün deyil.

Deyilənləri elmi sübut kimi qəbul ediriksə, telepatiya, psixokinez (telekinez) və s. bu kimi hadisələri izah etmək asanlaşır. Başqa sözlə, bir çox parapsixoloji hadisələr qravitasiya sahəsi qanunları ilə izah edilə bilər.

Tanınmış rus alimləri A.PDubrov və V.N.Puşkin qeyd olnnanları əsas götürərək aşağıdakı mülahizələri söyləmişlər:

1. Bioqravitasiya yalnız canlı orqanizmin fəaliyyəti nəticəsində yaranır.
2. O, digər sahə və enerjilərə çevrilmək qabiliyyətinə malikdir.
3. O, həm müsbət, həm də mənfi ola bilər.
4. O, istənilən məsafədə, istənilən maddi cisimlərdə öz fəallığını itirmir.

5. Bioqravitasiya istənilən miqdarda məlumatları yaya bilir.

Biosahəni Kvant nəzəriyyəsi ilə əlaqələndirən alimlərin fikrincə, insanlarda (o cümlədən bəzi heyvanlarda) müşahidə edilən altıncı hissiyat məhz rezonans - sahə hipotezinə əsaslana bilir.

Beləki, onun vasitəsi ilə:

a) Bioenergetik effekt (güzgü effekti);

b) Ressepsiyasız əlaqə;

c) Məlumatların uzaq məsafələrə ötürülməsi mümkündür.

Zahirən bəlkə də, anlaşılan görünən bu və ya digər nəzəriyyələr hələ tam elmi həllini tapmayıb. Ona görə də, birmənalı qəbul edilə bilməz. Elmin gələcək inkişafı kimin nə dərəcədə haqlı olduğunu sübuta yetirəcəkdir.